Ümumi məlumat	Fənnin adı, kodu və kreditlərin sayı	DSN 422 DİZAYNDA RƏNG VƏ İŞIQ, 2 KU (4 AKTS)
	Departament	**Memarlıq və dizayn departamenti**
	Proqram (bakalavr, magistr)	Bakalavr
	Tədris semestri	2023/24-cü tədris ilinin payız semestri
	Fənni tədris edən müəllim (lər)	**Sevinc Həsənova**
	E-mail:	Hasanova.sevinj@khazar.org
	Telefon:	+994 50 450 38 88
	Mühazirə otağı/Cədvəl	Neftçilər kampusu, otaq - **402** V gün **10:10 – 11:40** **11:50 – 13:20**
	Məsləhət saatları	Tələbələrlə razılaşdırılan vaxtlarda
Prerekvizitlər	-	
Tədris dili	Azərbaycan	
Fənnin növü (məcburi, seçmə)	Seçmə	
Dərsliklər və əlavə ədəbiyyat	**Dərsliklər:** - Nərgiz Ağayeva "İnteryer mühitinin dizaynı". Dərslik vəsaiti.Bakı-2013 - Ramiz Əbdülrəhimov-"Memarlıq fizikası".Dərslik. Bakı-2015 - Q.M.Əlizadə "Memarlıq nəzəriyyəsi və Azərbaycanda tikinti təcrübəsi". Dərslik.Bakı-1986 - N.Ə.Ağayeva,A.K.Şərifova "Modelləşdirmə" Metodik vəsait.Bakı-2020 - Şevki Vanlı Mimarlık Vakfı"Mimarlık üzerine on kitap-Vitruvius"2021 - Bora Yıldırım-"Konutlarda aydınlatma" Ankara 2021 - M.Karlen,C.Spangler,J.R.Benya-"Lighting Design Basics" Kanada 2017 - Jason livingston-"Designing with light" Kanada 2022	
Kursun təsviri	**Fənnin tələbə tərəfindən öyrənilməsi -** dünya memarlığında, müəyyən tarixi mərhələlərdə layihələnmiş binaların, qurğuların tiplərinin qanunauyğunluqları, dizayn tərtibatında rəng və işığın rolu,təşkili,funksiyası, işıq və rəngin insanların həyatına təsirinin öyrənilməsi üçün biliklərə yiyələnmək.Əldə olunmuş bilikləri müassir memarlıqla fərqləndirmək və yeni təcrübələrə nail olmaq.Verilmiş tapşırığa əsasən iç və xarici məkan işıqlanma və rəng həllini müstəqil tərtib etmək bacarığına nail olmaq.	
Kursun məqsədləri	**Tələbələrə -** İşıqlandırmanın dizayn prosesinin bütün aspektləri üzrə sistematik rəhbərlik, rəngin qavrayışı,rəngin göstərilməsi,rənglə işığın dinamikasının,işıqlandırmanın əsas funksiyalarını və bu funksiyaları yerinə yetirmək üçün istifadə olunan işıqla orijinal şərhlər yaratmaq bacarıqlarına yiyələnmək və peşəkar işıqlandırma və rəng dizaynının öyrənilməsi.İşığın növlərinin düzgün tırtibatının mənimsənilməsi.İsan psixologiyası və ətraf aləm nəzərə alınaraq,düzgün,əlaqəli,uyumlu rəng və işıq tərtibatının elmi,nəzəti və praktiki həllərinin mənimsənilməsi.Əldə edilmiş nəzəri bilik və praktiki anlayışa əsasən,verilmiş tapşırığın müstəqil,analitik və dolğun	

<table>
<tr><td></td><td colspan="3">həllinin mənimsənilməsi.</td></tr>
<tr><td>Tədrisin (öyrənmənin) nəticələri</td><td colspan="3">Fənnin ümumi tədrisi prosesində tələbələr:
Bacarmalıdır:
• Günəş işığının məkana necə daxil olduğunu və bu təbii elementin necə idarə ediləcəyini mənimsəməli.
• Bütün növ layihələr üçün günəş işığının məkanda birincilik və dominantlığının tərtibatını.
• Təbii və süni işıqlanmanın tərtibi zamanı insan psixalogiyasına və həyat tərzinə uygun optimallaşdırmağı bacarmalı.
• Funksional məkan və funksional işıqlanmanı mənimsəməli.
• İşıq və rəng dizynı ilə interyerdə əhval-ruhiyyənin təmin olunması
• İşığın rənglərini və bu rənglərin müxtəlif məkanlara görə tətbiqini və onların canlı aləmə təsirini nəzərə alaraq dizayn tərtibatının həllini
• Rənglə işığın harmoniyasını nəzərə alaraq,dizayn tərtibatının həllini
• Bəzək əşyalarının interyerdə rolunu araşdıraraq,düzgün dizayn tərtibatını.
• Material texnologiyasını, material və üslub seçimini anlayaraq,dizayn tərtibatını müstəqil həllini bacarmalıdır.</td></tr>
<tr><td rowspan="4">Tədris metodları</td><td>Mühazirə</td><td colspan="2">x</td></tr>
<tr><td>Qrup müzakirəsi</td><td colspan="2">x</td></tr>
<tr><td>Kurs işi layihə</td><td colspan="2">x</td></tr>
<tr><td>Digər</td><td colspan="2">x</td></tr>
<tr><td rowspan="6">Qiymətləndirmə</td><td>Komponentləri</td><td>Tarix/son müddət</td><td>Faiz (%)</td></tr>
<tr><td>Prezentasiya (araşdırma)</td><td></td><td>25</td></tr>
<tr><td>Davamiyyət</td><td></td><td>5</td></tr>
<tr><td>Aralıq</td><td></td><td>30</td></tr>
<tr><td>Final</td><td></td><td>40</td></tr>
<tr><td>Yekun</td><td></td><td>100</td></tr>
<tr><td>Qaydalar
(Tədris siyasəti və davranış)</td><td colspan="3">Prezentasiya
Tələbə tərəfindən fənni əhatə edən mövzular əsasında seçim edilməli və seçilmiş mövzu dərindən təhlil edilməlidir. Araşdırma əsasında prezentasiya hazırlanmalı və Final imtahanına qədər təqdim edilməlidir. Semestrə aid verilmiş tapşırığın təqdimatı semestr müddətində 2 dəfə (1-ci Aralıq imtahanında-natamam (Slayd prezentasiya) və 2-ci Final imtahanında (planşet və maket prezentasiya) tam layihə təqdim olunacaq. Tələbələr tapşırığı fərdi (və ya bəzən qrup) şəkildə hazırlamalı və dərsdə təqdim etməlidir. Məzmunundan asılı olaraq, tapşırıqlar Prezentasiya formasında 2 ölçülü və 3 ölçülü tələb olunacaqdır. Aralıq imtahanına qədər Prezentasiya tapşırığı 10 bal, Final imtaha qədər Prezentasiya tapşırığı 10 bal təyin olunub. Tapşırığın mütləq tələbə tərəfindən oxunub təqdim edilməsi tələb olunur. Bu tapşırığın məqsədi gələcək dizaynerlərin qısa müddətdə kiçik araşdırma aparmaqla təqdimetmə vərdişlərinin formalaşdırılması və inkişaf etdirilməsidir.
Aralıq imtahanı
Tələbənin semestr ərzində üzərində işlədiyi layihəyə baxış nəzərdə tutulur. Layihəyə baxış zamanı artıq layihənin ərazi təhlili, ideya həlləri, daxili planlaşdırılması, ön və yan fasad həlləri və kəsiyi tamamlanmış olmalıdır..</td></tr>
</table>

	Qeyd: Layihə tərtibatı kompüter qrafikası proqramları (AutoCAD, ArchiCAD, SketchUp, Revit, 3ds Max, Rhino, Lumion, Photoshop, CorelDraw və s.) vasitəsilə aparılmalıdır . **İstisna:** Fakültə dekanlığına tələbə öncədən üzrlü səbəbdən (ailəvi vəziyyət və səhhətlə bağlı) Prezentasiyada iştirak edə bilməyəcəyi haqda məlumat vermişsə, və ya sonra bununla əlaqədar hər hansı bir sənəd (ərizə və ya arayış) təqdim edibsə, yalnız bu halda tələbəyə yenidən yoxlama keçirilə bilər. **Davamiyyət** Dərsə davamiyyətə görə verilən maksimum bal 5 baldır. Balın miqdarı əsasən: tələbə semestr ərzində fənn üzrə bütün dərslərdə iştirak etdiyi halda ona 5 bal verilir. Fənn üzrə semestr ərzində buraxılmış dərs saatlarının ümumi sayı normativ 25%-dən müəyyən olunmuş (xəstəlik, ailə vəziyyəti və s.) həddən yuxarı olduğu halda tələbə haqqında müəyyən qərar qəbul edilir. **İmtahan** Tələbənin üzərində işlədiyi layihəyə baxış nəzərdə tutulur.Hər bir tələbə tapşırığı fərdi layihələndirməlidir. Layihələndirmə zamanı dərsdə tədris olunan materiallar,nəzəriyyələr əsas götürülməli,araşdırmalar aparılmalı və alternativ,düzgün,səmərəli üsullardan istifadə edilməlidir. **Qeyd:** Semestr ərzində həftəlik, davamlı araşdırmaların, tərtibat və təqdimatların aparılması və məşğələ dərslərində davamlı şəkildə irəliləyişin göstəricisi yekun layihə qiymətləndirilməsində rol oynayacaq. Layihə tərtibatı kompüter qrafikası proqramları (AutoCAD, ArchiCAD, SketchUp, Revit, 3ds Max, Rhino, Lumion və s.) vasitəsilə aparılmalıdır . **Fənni bitirmək qaydası** Tələbənin biliyi maksimum 100 balla qiymətləndirilir. kursu bitirmək üçün ümumi müvəffəqiyyət faizi 60 % və daha yuxarı hesab edilir. Kəsri olan tələbə bu fənni növbəti semestr və ya növbəti il təkrarən götürə bilər. **Tələbənin davranış qaydaları** Tələbənin Universitetin daxili nizam-intizam qaydalarını pozmasına və mobil telefondan istifadəsinə icazə verilmir. **Yekun qeyd:** **Tələbə tərəfindən təhvil verilən tapşırıqlarda plagiat yol verilməzdir və aşkarlandığı təqdirdə tələbənin işi 0 balla qiymətləndirilir.**

Cədvəl

Həftə	Tarix	Fənnin mövzuları	Dərslik/Tapşırıqlar
1.	15.09.2023	Fənnə giriş. Dizayn və tərtibat anlayışları.İnteryerin dizayn tərtibatı. Funksional məkanlar. Məkanların zonalanması.İnteryerin kopozisiyası.	1. Ağayeva N.Ə. “İnteryer mühitinindizynı” 2. Mühazirə mövzuları 3. Hacıyeva Y.Ə.“Dizaynın əsaslarə” 4. Dr.öğr.üyesi Bora Yıldırım “Konutlarda aydınlatma” 5. R.H.Əbdülrəhimov “Memarlıq fizikası””
	15.09.2023	Fənlə tanışlıq, mövzunun təqdim edilməsi və kursun tətbiqi metodunun izahı. Ərazi seçimi .	

2.	22.09.2023 22.09.2023	Yaşayış məkanlarının interyer tərtibatı. Dizayn texnologiyası.Əsas elementlər.Üslub. Mühazirə mövzularının müzakirəsi və ərazi seçimlərinin təsdiqi və təqdimatı.	**Tapşırıq**: Təbii və süni işıqlanma axtarışları.
3.	29.09.2023 29.09.2023	Dizaynda rəng.Rəng qavrayışı Dizayn tərtibatına və insan psixologiyasına rəngin təsiri. Tapşırıqlara baxış və müzakirələr.	**Tapşırıq:** Dizaynda üslub axtarışları.
4.	06.10.2023 06.10.2023	İnteryerin dizayn tərtibatında işıq, funksional işıqlanma.Ənənəvi və müasir funksional işıqlanma. Dizayn üslubarı və tapşırığa əsasən üslubların müzakirəsi.	**Tapşırıq:** İşıqlanma növləri.
5.	13.10.2023 13.10.2023	Təbii işıqlanma.Günəş enerjisi.Günəş energisinin tətbiqi,təhlili və həlli.Təbii işıqlanmanın insan həyatına təsiri. Verilmiş tapşırıq üzərində müzakirələr və həllər.	**Tapşırıq:** Günəş enerjisi haqqında məlumatlar,axtarışlar və həll yolları.
6	20.10.2023 20.10.2023	İnteryerin süni işıqlanması.Dizayn həllində örtüklərin və süni işıqlanmanın tərtibatı. Prizentasiya(tapşırıq) axtarışlarına baxış,örtüklərin müzakirəsi.	**Tapşırıq:** Mühazirə mövzusuna əsasən axtarışlar.
7.	27.10.2023	İnteryer tərtibatında bəzək əşyaları.İnteryerin və əşyaların rəng və işıq effektləri.Rənglə işığın harmoniyası.	**Tapşırıq:** Prizentasiyaların aralıq imtahana

	27.10.2023	Prizentasiya və tapşırıqlara baxış,aralıq imtahanına hazırlıq.	hazırlığı.
8.	03.11.2023	Aralıq imtahanı	
9.	10.11.2023 10.11.2023	Dizayn tərtibatında mebel və dekorativ əşyalar, material tətbiqi.Təbiət dosu materiallar.Materiallarda işıq və rəng effekti.Üslub və funksionallığa əsasən material və mebel tərtibatı. Prizentasiyaların davamının işlənməsi.	**Dərsliklər:** 1.Mühazirə materialları(Slayd) 2.Genco Berkin "Malzeme ve Detay Seti" 2021-2022 3.Şevki Vanlı Mimarlık Vakfı"Mimarlık üzerine on kitap-Vitruvius" 2021 4.Victoria Ballard Bell "Materials for architectural design" 30 iyul 2006 5.Lorraine Farrelly "Basics Architecture02: Construction&Materiality"
10.	17.11.2023 17.11.2023	Dizayn tərtibatında coğrafi mövqelər. Təhsil və iş mərkəzlərinin dizyan - layihə həlləri.İşıqlanma ,rəng və material psixologiyası. Tapşırığın (Prezentasiyanın) gedişatının izlənməsi. Tapşırıq üzərində iş.	**Tapşırıq:** Mühazirə mövzusuna aid araşdırmalar.
11.	24.11.2023 24.11.2023	Dizayn tərtibatında divar üzlükləri.Üslub və mövqeyə əsasən üzlük materialları. Tapşırıqlara baxış və müzakirələr.	**Tapşırıq:** Tapşırığın tərtibatına əsasən divar üzlükləri axtarışları.
12.	01.12.2023 01.12.2023	İnteryerin tərtibatında müasir materiallar.Smart materiallar və texnologiyaları. Tapşırığın yoxlanılması və müzakirələr.	**Tapşırıq:** Mühazirə mövzusuna aid araşdırmalar.
13	08.12.2023	Eksteryer dizayn tərtibatında işıqlanma,rəng və materiallar.Bağ,park və həyətyanı ərazi işıqlanmaları.Tərtibatda nəzərə alınmalı nüyanslar.	**Tapşırıq:** Prizentasiyaların yekuna

	08.12.2023	Tərtibatda istifadə olunan materialların,ideyalarıın,rəng və üslubların uyğunluğu,əlaqəsi,texnologiyaları və s.-lərə baxış,müzakirə və təsdiqlər.	hazirlanması.
14	15.12.2023 15.12.2023	Fərqli funksiyalı məkanların dizayn tərtibatında işıq,rəng və material həlləri.Kütləvi istifadəli məkanların (restoran,kafe və AVM –lərin) dizayn-layihə tərtibatı,işıq,rəng və tikinti materialı və bəzək materialları həlləri.Məkan funksionallığı. Tapşırıqların yoxlanılması və baxışa hazırlanması.	**Tapşırıq:** Mühazirə mövzuarı və araşdırmalara əsasən Prizentasiyanın yekunlanması.
15	22.12.2023	İctimai binaların və səhiyyə mərkəzlərinin dizayn tərtibatında işıq,rəng və material həlləri.Keçilmişlərin ümumiləşdirilməsi. Layihələrin yekuna hazırlanması,yoxlanılması,yekunlanması.	**Tapşırıq:** Araşdırmaların yekunlanması.Təqdimatı və təslimatı.
Final imtahanı.			

Təsdiq edir: Dos. Abbasova Ş.A._____
Memarlıq və dizayn departamentinin rəhbəri